**30.09.2022: xəbər**

**Khazar University project “DIRNA” is a winner in Erasmus+ 2022**
Participating in projects can be seen as journeys for learning about people, organizations, project management and the context of the project itself. We find working with European Union projects rewarding and ample opportunities for both personal and professional growth.

**Institutional Repositories Network in Azerbaijan**” project (hereafter **DIRNA**) aims at building capacity in the context of research output management, focusing on eight leading AZ HEIs, via establishing Open Access Institutional Repositories Network. The process of intense as well as comprehensive training, which is required to establish and then interlink the aforementioned repositories at each site, arrange the framework’s implementation, data entry and smooth management will represent the core of the DINRA. Initiator of the project is Khazar University Library & Information Center.

Learning outcomes from the project-bound activities will be shared and disseminated in a variety of ways, including the initiation and then establishment of facilities and mechanisms to proactively assist other institutions in the country in setting up and managing their own repositories. In a significant addition, the DINRA’s lenses will be on improving not only the visibility and the management of quality scholarly research, but also on supporting open access to research outputs, advocating, and fostering scholarly communication and coordination between the AZ HEIs across the country.

The proposed platform will include three main components that fill the gaps in the project: 1) a network of repositories that enables discovery, 2) flexible central repository of knowledge supporting the Azerbaijani Universities’ teaching, research, and related activities, both in the present day and for the long-term future and 3) Virtual Reference Center as a hub of reference and research activities in institutional repository data management.

The Project comprises of 8 AZ HEIs, and 3 European Higher Education Institutions (EU HEIs).

The AZ HEIs partners are as follows: Khazar University, Baku State University, Technical University, Academy of the State Customs Committee of the Republic of Azerbaijan, Ganja State University, Nakhchivan State University, Lankaran State University, Mingachevir State University.

The European partners are: University of Jyväskylä (Finland), Izmir Institute of Technology (Turkey), Università degli Studi dell'Aquila-(İtaliya).
Khazar University is the main applicant and the coordinator of the project. All other DINRA partners will participate in managing the project through looking after the activities within their segments of responsibility, while Khazar will assume the role of the main assistant-partner to facilitate all activities of the consortium. The partners will be involved in the preliminary-stage, and in the early-stage installation of pilot repositories and also in testing the repository data entrance and general management of the process.

**Xəzər Universitetinin DIRNA layihəsi Erasmus+ 2022-də qalib oldu**
Layihələrdə iştirak etmək insanları, təşkilatları, layihənin idarə edilməsini və layihənin özünün kontekstini kəşf etmək üçün bir vasitə kimi başa düşülə bilər. Biz, Xəzər Universiteti olaraq, Avropa İttifaqı layihələri ilə işləməyi həm şəxsi, həm də peşəkar inkişaf üçün faydalı hesab edirik və bunun geniş imkanlar yaratdığını düşünürük.
Azərbaycan İnstitusional Repozitorlar Şəbəkəsi (bundan sonra DIRNA) layihəsi açıq girişi olan institusional repozitorlar şəbəkəsinin yaradılması vasitəsilə səkkiz aparıcı Azərbaycan universitetinə diqqət yetirməklə tədqiqat nəticələrinin idarə edilməsi kontekstində potensialın artırılması məqsədi daşıyır. Yuxarıda qeyd olunan repozitorların yaradılması və sonra əlaqələndirilməsi, həyata keçirilməsinin təşkili, məlumatların daxil edilməsi və problemsiz nəzarət üçün tələb olunan intensiv və hərtərəfli təlim prosesi DIRNA-nın əsasını təşkil edəcəkdir. Layihənin təşəbbüskarı Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzidir (KİM).
Layihə ilə bağlı fəaliyyətlərdən əldə edilən öyrənmə nəticələri müxtəlif yollarla, o cümlədən ölkədəki digər qurumlara öz repozitorlarının yaradılması və idarə olunmasında fəal şəkildə kömək etmək üçün imkanların və mexanizmlərin işə salınması və təmin edilməsi yolu ilə paylaşılacaq və yayılacaq. Daha bir vacib məqam odur ki, DIRNA-nın məqsədi təkcə keyfiyyətli elmi tədqiqatın üzə çıxması və idarə olunmasını təkmilləşdirmək deyil, həm də tədqiqat nəticələrinə açıq çıxışı dəstəkləmək, ölkə daxilində ali təhsil müəssisələri arasında elmi əlaqə və koordinasiyanı saxlamaq və təşviq etməkdir.
Təklif olunan platforma layihədəki boşluqları dolduran üç əsas komponentdən ibarət olacaq: 1) araşdırmağa imkan verən repozitorlar şəbəkəsi 2) Azərbaycan

universitetlərinin həm bu gün, həm də gələcəkdə tədris, tədqiqat və əlaqəli fəaliyyətlərini dəstəkləyən çevik mərkəzi bilik repozitoru 3) Virtual Referans Mərkəzi institusional məlumatların idarə edilməsində istinad və tədqiqat fəaliyyəti mərkəzi kimi.

Layihəyə 8 Azərbaycan və 3 Avropa ali təhsil müəssisəsi daxildir.

Azərbaycan ali təhsil müəssisələrindən tərəfdaşlar aşağıdakılardır: Xəzər Universiteti, Bakı Dövlət Universiteti, Texniki Universitet, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti.

Avropalı tərəfdaşlar bunlardır: Jyväskylä Universiteti (Finlandiya), İzmir Texnologiya İnstitutu (Türkiyə), Università degli Studi dell'Aquila-(İtaliya).

Xəzər Universiteti əsas təşəbbüskar və layihə koordinatorudur. Bütün digər DIRNA partnyorları layihənin idarə edilməsində iştirak edəcək, öz məsuliyyət sahələri daxilində fəaliyyətlərə nəzarət edəcək və Xəzər konsorsiumun bütün fəaliyyətlərini asanlaşdırmaq üçün əsas köməkçi tərəfdaş rolunu öz üzərinə götürəcək. Tərəfdaşlar ilkin mərhələdə pilot repozitorların quraşdırılmasında, həmçinin repozitor məlumatlarının daxil olmasının sınaqdan keçirilməsində və prosesin ümumi idarə edilməsində iştirak edəcəklər.